

*Şərur güc-əzəmət, bolluq-bərəkət rəmzi olan ulu məkandır. Sinəsindən axan Arpaçayın çağlayıb xan Araza qovuşduğu bu qədim diyar Dədə Qorqud eli, Babək vətəni, əkinçilər, biçinçilər yurdudur. Əzəldən qonaqlı-qaralı, açıq süfrəli, halal çörəkli olan bu müqəddəs məkanın hər qarışı bir tarixdir. Bu tarixin Daş kitabələrini vərəqlədikcə ulu keçmişimizin, əcdadlarımızın yaşayışı, həyat tərzi, məişəti əkinçilik mədəniyyəti, toyu-düyünü, adət-ənənəsi göz önündə canlanır.*

# TARİXDƏN GƏLƏN SƏSLƏR

Bu yurdun hər daşı, hər qayası əsrlərlə təbiətin şıltaqlıqlarına sinə gərib, çiskin bahar yağışı ilə yuyulub, qızmar yay günəşi ilə rəngdən-rəngə düşüb sərt şaxta-boranla üz-üzə dayanıb, əcdadlarımıza ilk və son sığınacaq olub, qəlpələnə-qəlpələnə əl çapacağına, baltalara, qaşovlara, itiuclulara, sürtgəclərə dönüb. Daş heykəllərə çevrilə-çevrilə müqəddəsləşib, üst-üstə düşərək qalaqlanıb, sinəsi pardaqlanıb-naxışlanaraq inciləşib, kitabiləşib, əcdadlarımızın nağıllı dünyasını bağrına basaraq ululaşıb bu daşlar. Oğlanqala, Narınqala, Dəhnə, Kültəpə igidlər, ərənlər məskəni olub. Bu torpağın oğulları dəfələrlə yadelli işğalçılara qarşı mərdliklə sinə gərib, bu elin hər qarış torpağını göz bəbəyi kimi qoruyublar.

Şərurun mərkəzində əzəmətli bir bina ucalır. Milli üslubda tikilmiş, göz oxşayan ornamentlərlə bəzədilmiş bu mədəniyyət ocağında rayon tarix-diyarşünaslıq muzeyi yerləşir. Binaya daxil olduqda sanki nağıllar aləmində özünü hiss edirsən. Əlindəki dəmisinə qullab vurub fikrə dalan Dədə Qorqud timsallı piranlı qocanın tunc heykəli ilə qarşılaşan hər kəs sanki xəyala dalır, keçmişə səyahətə çıxır. Minbir gecə nağıllarındakı illüstrasiyalarla, dahi Nizaminin "Sirlər xəzinəsi", ulu Füzulinin "Leyli Məcnun", "Fərhad və Şirin" poemalarındakı qəhrəmanlıq, sevgi və məhəbbət səhnələrini əks etdirən rəngarəng, nəfis şəkildə işlənmiş tablolara baxdıqca heyrətlənməyə bilmirsən.

Binanın tavanındakı beş guşənin hər biri xalqımızın qəhrəman oğullarının igidlik dastanından söhbət açır. Yağlı boya ilə çəkilmiş rəngli tablolarda əlində Misri qılınc tutub nərə çəkən xalq qəhrəmanı Koroğlunun, Aynalı tüfəngini çiyninə çalıb Boz atını çapan Qaçaq Nəbinin, Azərbaycan torpağının birliyi naminə canından belə keçməyə hazır olan şair təbiətli qəhrəman oğlumuz Şah İsmayıl Xətainin, yadellilərə qarşı mübarizədə mərdanəliklə həlak olan hürufi Babəkin, erməni daşnaklarına qan udduran Vedibasarın mərd oğlu Abbasqulu bəy Şadlinskinin məğrur simaları ilə qarşılaşdıqca haqlı olaraq xalqımızın mərdliyi qarşısında baş əyir, onların igidliyi ilə qürurlanıb fəxr edirsən.

1978-ci ildə ictimai əsaslarla fəaliyyətə başlayan muzeyimiz 1980-cı ildə ulu öndər, müdrik rəhbərimiz Heydər Əliyevin bilavasitə təşəbbüs və rəhbərliyi ilə rəsmi dövlət müəssisəsinə çevrilmişdir.

30 ilə yaxın tarixi olan muzey indi qabaqcıl mədəniyyət müəssisəsi kimi fəaliyyət göstərir. Bu müddət ərzində muzeyin fonduna 7000-nə yaxın eksponat toplanmışdır.

Muzeydə iki şöbə və on iki bölmə fəaliyyət göstərir. "Təbiətşünaslıq", "Arxeologiya", "Etnoqrafiya", "Numuzmatika", "Şəhidlər", "Böyük Vətən müharibəsi", "Azərbaycan-ana Vətən", "Heydər Əliyev-84", "Mədəniyyət və incəsənət", "Qırmızı tabor", "Alimlər", "Şairlər" bölmələrində 4 minə yaxın eksponat nümayiş etdirilir. Muzeydə saxlanılan və nümayiş etdirilən eksponatların demək olar ki, əksəriyyəti Şərur ərazisindən toplanıb gətirilmişdir. Eramızdan əvvəl III-II minilliklərə aid gil qab hissələri, saxsı qablar, daş alətlər, büt daşı və keramik bəzək nümunələri, tunc bilərzik, balta, xəncər, nizə ucluqları və s. əşyalar nadir incilərdir. Tamaşaçı ekspozisiyada nümayiş olunan eksponatlarla tanış olduqda Azərbaycanın, doğma Naxçıvanın və Şərurumuzun tarixinə, mədəniyyətinə, incəsənətin sənətkarlıq ənənələrinə yaxından bələd olur.

Orta əsr Azərbaycan mədəniyyəti xalçaçılıq sənəti ilə daha çox yadda qalır. Xalqımızın bu doğma və sevimli sənətinin qədim Şərurda da özünəməxsus inkişaf yolları olub. Muzeydəki kilim, xalça nümunələri bu sənətin tarixindən söz açır, bər-bəzəkli farmaşlar, xurcunlar, heybələr bu təsəvvürü daha da zənginləşdirir.

Qədim bəzək əşyaları xalqın mənəvi yaddaşının mühüm bir amilidir. Tarix üzü bəri getdikcə sənətkarlıq baxımından daha da dolğunlaşdırılmışdır. Orta əsrlərdən başlamış XIX əsrə kimi muzeydə nümayiş etdirilən müxtəlif qadın bəzək əşyaları-boyunbağılar, göz muncuqları, sırğalar, kəmərlər, qolbaqlar və s. əşyalar daha çox diqqəti cəlb edir. Əmək alətləri olan xış, cüt, kotan, vəl, mərəngi və s. keçmiş əkinçiliyin parlaq nümunələridir. Bu təsərrüfat alətləri qədim əkinçilik mədəniyyəti barədə geniş təsəvvür yaradır.

Tamaşaçılar mədəniyyət bölməsini də xüsusi maraqla seyr edirlər. Burada Şərurun nəğməkar qızı aşıq Nabatın sazı, qədim ney, qara zurna, tulum, tütək və başqa musiqi alətləri nümayiş etdirilir. Məşhur "Nurani" Şərur yallısının Almaniya, Polşa, Çexoslovakiya və başqa ölkələrdəki çıxışlarını, qastrol səfərlərini əks etdirən foto-şəkillər, albomlar, fəxri fərmanlar, prizlər və digər sənədlər də bölmənin dəyərli eksponatlarındandır. Həmçinin, sovet dönəmində rayon mədəniyyət şöbəsinin layiq görüldüyü Ümumittifaq və respublika keçici Qırmızı bayraqları da bu guşəni bəzəyir.

Muzeyin ikinci mərtəbəsindəki zəngin bir guşə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə, anadan olmasının 84-cü dönümünə həsr olunmuşdur. 2002-ci ildə dahi öndərimizin Naxçıvana səfəri zamanı Şərur torpağında olmasına dair foto-materiallar böyük bir ekspozisiya təşkil edir.

Torpaqlarımızın müqəddəsliyi, vətənə sevgi və məhəbbət hisslərinin gənclərə, aşılanması baxımından da biz muzey işçilərinin üzərinə böyük vəzifələr düşür.

"Müasir dövr" adlı bölmədə yaxın keçmişimizin və bu günümüzün reallıqlarını özündə təcəssüm etdirən eksponatlar bu günkü tariximizdən danışır. Muzeydə şəhidlərə, Azərbaycan Vətən müharibəsi və Böyük Vətən müharibəsi iştirakçılarına aid kitablar, foto-şəkillər və sənədlər istənilən qədərdir. Hər bir sənət, hər bir eksponat onlarca insanın, igidin, qəhrəmanın həyatıdır, qırılmış ömrüdür, yarımçıq taleyidir.

Şərurlular öz doğma oğulları - Azərbaycanın Milli Qəhrəmanları Məhərrəm Seyidova, Səyavuş Həsənova, Kərim Kərimova həsr olunmuş guşələr, stendlər qarşısında saatlarla ayaq saxlayır, onların xatirəsini yad edir, sücaətləri önündə baş əyirlər.

Təkcə rayonumuzdan yox, respublikamızın digər yerlərindən, MDB ölkələrindən, İran İslam Respublikasından, Türkiyədən, Amerika, İngiltərə, Fransa, Şimali və Cənubi Koreya məmləkətlərindən gələn qonaqlar, muzeyimizdə xalqımızın, millətimizin tarixi keçmişi və indisi ilə ətraflı tanış olur, qarşısında şəhidlərimizin ruhunu yad edirlər.

Fond müdiri Zərifə Əliyeva, bələdçi Nurlana Musayeva, tərtibatçı-rəssam Həsən Ağayev, nəzarətçi Məlahət Həsənova, Zülfiyyə Həşimova, Şəkər Qasımova, kiçik elmi işçi Bəyimağa Sadiqova və Zəminə Babayeva muzeyə gələnlərə verdikləri məlumatlarla onlarda tariximiz barədə hərtərəfli təəssürat yaradır, özləri də çalışırlar ki, elmin, mədəniyyətin tarixi zirvəsinə yüksəlsinlər.

Hörmətli Prezidentimiz İlham Əliyevin muzeylərin yüksək səviyyədə inkişaf etdirilməsi haqqındakı sərəncamı biz mədəniyyət işçilərinə göstərilən qayğının yeni parlaq təcəssümüdür. Muxtar respublika rəhbərliyinin diqqət və qayğısı sayəsində muzeyimizdə yaxın vaxtlarda restavrasiya işlərinin aparılması üçün əsaslı təmirə başlanacaqdır. Bütün bunları kollektivimiz dərin minnətdarlıq hissi ilə qarşılayır, gələcək işimizin proqramı kimi qəbul edirik.

**Mirhüseyn SEYİDOV,**
**Şərur Rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru**

